# “Yaşıl enerji” əməkdaşlığında güvənilən tərəfdaş



**Azərbaycanın Baş naziri Əli Əsədov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitinin plenar iclasındakı çıxışında ölkəmizin elektrik enerjisi ixracatçısı kimi öz mövqeyini getdikcə möhkəmləndirdiyini və bu istiqamətdə mühüm uğurlar əldə etmək üçün zəngin “yaşıl enerji” potensialına malik olduğunu diqqətə çatdırıb. Baş nazir daha sonra deyib: “Bu gün biz xarici investorlarla birlikdə günəş və külək enerjisinin istehsalı ilə bağlı layihələrə başlamışıq. Bunlardan biri – 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası layihəsi Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti ilə birgə həyata keçirilir. “Masdar” şirkəti bu sahədə bizim üçün əsas və güvənilən tərəfdaşlardan biridir”.**

Ə.Əsədov, eyni zamanda, Azərbaycanın bir sıra vacib enerji layihələrinin təşəbbüskarı və iştirakçısı qismində çıxış etdiyini bildirib, Cənub Qaz Dəhlizi layihəsinin Avropanın enerji təhlükəsizliyinin gerçəkləşməsi üçün mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Azərbaycanın Baş nazirinin bu fikirləri ilə bağlı əvvəlcə onu qeyd edək ki, respublikamızla BƏƏ arasında münasibətlər hazırda ən yüksək səviyyədədir və getdikcə inkişaf edir. Ötən ilin dekabrında Fransa və Ermənistan tərəfindən BMT Təhlükəsizlik Şurasında ölkəmizə qarşı yönəldilən kampaniyanın davamı kimi antiAzərbaycan qətnaməsinə BƏƏ-nin sərt şəkildə etiraz etməsi bunun bariz ifadəsidir. Adıçəkilən dost ölkənin belə haqlı, obyektiv münasibəti Azərbaycan üçün mühüm önəm daşıyır.

Yeri gəlmişkən, respublikamızla BƏƏ arasındakı münasibətlərin inkişafında iqtisadi əməkdaşlıq hər zaman əhəmiyyətli rol oynayıb. Bu, ilk növbədə, ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmində artımın davamlı şəkildə olmasında özünü qabarıq büruzə verib. Belə ki, 2021-ci ildə Azərbaycanın BƏƏ ilə ticarət dövriyyəsinin həcmi 50,42 milyon ABŞ dolları təşkil edib. Keçən ilin yanvar-noyabr aylarında isə həmin göstərici 94,62 milyon ABŞ dollarına çatıb, xarici ticarət saldosu isə müsbət 36,60 milyon ABŞ dolları olub. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə, hesabat ilinin yanvar-noyabr aylarında BƏƏ ilə ticarət dövriyyəsi 2,34 dəfə, o cümlədən ixrac 5,17 dəfə, idxal isə 4,49 faiz artıb.

Eyni zamanda, iki ölkə arasında turizm əlaqələri də genişlənib. 2021-ci ildə Azərbaycan Respublikasına 17 minə yaxın BƏƏ vətəndaşı gəlib. 2022-ci ildə isə Azərbaycana gələn BƏƏ vətəndaşlarının sayı 2 dəfədən çox artıb.

Burada onu da xatırladaq ki, hər iki ölkə hökumətləri arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya yaradılıb. Bu komissiyanın indiyədək keçirilən iclaslarında imzalanan yekun protokollarda ikitərəfli iqtisadi əlaqələr, investisiya, ticarət, “yaşıl enerji”, kənd təsərrüfatı, qida təhlükəsizliyi, innovasiya, logistika, turizm, səhiyyə, elm sahələrində əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı investisiyaların təşviqi kimi məsələlər önə çəkilib.

Qeyd edək ki, 2017-ci ildən bəri Dubay şəhərində ölkəmizin Ticarət nümayəndəliyi, 2019-cu ildən isə yerli məhsulların BƏƏ və Körfəz dövlətlərində satışını təşkil etmək və “Made in Azerbaijan” brendinin bu ölkə bazarında daha çox tanıdılması üçün “Azərbaycan ticarət evi” fəaliyyət göstərir. Hazırda respublikamızda 360 BƏƏ investisiyalı kommersiya qurumunun işi uğurlu göstəricilərlə diqqət çəkir.

Azərbaycanın Baş naziri Əli Əsədovun Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitinin plenar iclasındakı çıxışında dost ölkə ilə birgə elektrik enerjisi layihəsinin reallaşdırılmasına gəlincə isə, onu qeyd edək ki, 2021-ci ilin aprel ayında Azərbaycan Energetika Nazirliyi və “Azərenerji” ASC ilə BƏƏ-nin “Masdar” şirkəti arasında 230 MVt gücündə günəş elektrik stansiyası layihəsi üzrə “İnvestisiya müqaviləsi”, “Enerji alqı-satqı müqaviləsi” və “Ötürücü şəbəkəyə qoşulma müqaviləsi” imzalanıb. İlkin hesablamalara əsasən, stansiya tərəfindən illik 500 milyon kVt/st elektrik enerjisi istehsal olunacağı nəzərdə tutulub.

Yeri gəlmişkən, ötən il martın 15-də Bakıda “Masdar” şirkəti tərəfindən ölkəmizdə inşa edilən 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib.

Sonda qeyd edək ki, Azərbaycanın Energetika Nazirliyi ilə BƏƏ-nin “Masdar” şirkəti arasında “Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1 QVt gücündə günəş və 1 QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi” və “Dənizdə 2 QVt gücündə inteqrasiya edilmiş külək və yaşıl hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi” imzalanıb.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***